**DOI:** https://doi.org/10.59849/2957-3882.2023.1.119
**UOT 94 (479.24)**

# TƏBRİZDƏ 29 BƏHMƏN ÜSYANI (18.02.1978) VƏ ONUN İRAN İSLAM İNQİLABININ BAŞLANMASINDA YERİ

**Yeganə HACIYEVA**[*]

***Açar sözlər:*** *Təbriz, İran, inqilab, cənubi azərbaycanlılar, üsyan*

## XÜLASƏ

Məqalədə Təbrizdə baş vermiş üsyanın İran cəmiyyətini silkələyərək Şah rejiminə qarşı nifrəti daha da alovlandırması, müxtəlif təbəqələrin hərəkətlənməsi üçün ilham mənbəyi və təkan olmasından bəhs olunur. Bununla yanaşı, İran rejiminin institusional dayaqlarının qeyri-bərabər inkişafın və qeyri-bərabər modernləşmənin göstərdiyi təzyiqlərə tab gətirəcək qədər güclü olmaması müəyyənləşdirilir. Həmçinin 1977-ci ilin sonunda etiraz nümayişləri ziyalılar və tələbələrdən ibarət demokratik düşüncəli və mütərəqqi təbəqələrin iştirakı ilə başlansa da, dünyəvi müxalifət qüvvələrinin təqib və repressiyaya məruz qalması nəticəsində şiə ruhanilərin fəaliyyətinin güclənməsi və təşkilatçılıq qabiliyyətinin üzə çıxması da izlənilir.

1925-ci ildə Rza xan Pəhləvi hakimiyyətə gəldikdən sonra İranda mərkəzi hakimiyyət zorakı assimilyasiya siyasətini geniş və intensiv şəkildə həyata keçirərək burada yaşayan qeyri-fars etnoslara münasibətdə özünə mühüm düşmən qazanmaqda davam edirdi.

İran İslam inqilabı ərəfəsində şah hökuməti iqtisadi sferada sənayeləşdirməyə və aqrar islahatların aparılmasına, həmçinin mədəniyyət sahəsində modernləşdirməyə cəhdlər etsə də, siyasi-hüquqi sferada qatı mühafizəkar siyasət yürütməsi ilə ölkədə mövcud olan iqtisadi, sosial və siyasi xarakterli ziddiyyətləri daha da dərinləşdirdi. Hökumətin Qərb müttəfiqlərinin israrı ilə ölkədə liberal mühit yaradılması istiqamətində atdığı addımlar isə rejimə müxalif olan qüvvələrə mübarizəni genişləndirmək üçün əlverişli şərait yaratdı. Digər tərəfdən isə xarici dövlətlərin ölkənin daxili işlərinə qarışmaqla qarışıqlıq yaratmaq səyləri də narazı müxalif çevrələrə yaranmış mühitdən faydalanaraq fikirlərini açıq ifadə etmək, etiraz aksiyaları keçirmək imkanı verdi. İnqilabi çıxışlar 1977-ci ilin sonlarından başlayaraq genişləndi.

1978-1979-cu ildə İranda başlanmış inqilabın ən mühüm hadisəsi - Şah rejiminin fəqərə sütununu sındıran üsyan - 1978-ci ilin fevral ayında Təbrizdə baş verdi. Üsyanın geniş kütlələri əhatə etməsi və üsyançıların çox ciddi müqavimət əzminin əsas səbəblərindən biri azərbaycanlılara qarşı sərt repressiya və zorakı assimilyasiya siyasətinin yeridilməsi idi.

7 və 9 yanvar 1978-ci il tarixlərində İranda şiəliyin əsas mərkəzlərindən biri olan Qum şəhərində keçirilən nümayişlərin səbəbi İran üləmalarının liderlərindən sayılan, mühacir müxalifətin rəhbərlərindən olan Xomeyni barədə dərc edilən yazı idi. "Ettelaat" rejim əleyhinə çıxan ruhanilərə qarşı bir satirik məqalədə onları "qara irticaçılar" adlandırmış və Ağ İnqilabın nailiyyətlərini məhv etmək üçün gizli şəkildə xarici qüvvələrə işləməkdə günahlandırmışdı (7, s.505). Həmin vaxt seminariyalar və bazarlar məqaləyə görə xalqdan üzr istəmək tələbini irəli sürərək bağlandı və təxminən 4000 ilahiyyatçı tələbə və onların dəstəkçiləri küçələrə çıxıb "Yezid hökumətini istəmirik!", "Konstitusiyamızı istəyirik!" və "Ayətullah Xomeyninin qaytarılmasını tələb edirik!" şüarları səsləndirdilər (7, s.505). Nümayişçi tələbələrlə aksiyanı dağıtmaq istəyən polis qüvvələri arasında toqquşma baş

[*]*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, t.ü.f.d., dosent.*
*E-mail: yeganahaji@gmail.com*

verdi. Nümayişçilər müxalifət xadimlərinə qarşı repressiyalara son qoyulmasını, hökumət kabinetinin dəyişdirilməsini, demokratik azadlıqların təmin edilməsini, tələbələrə qarşı polis zorakılığının dayandırılmasını və konstitusiya normalarının həyata keçirilməsini tələb edirdilər. Bu aksiyadan sonra hakimiyyət 9 yanvar tarixində bir neçə min dindar tələbə və onların həmfikirlərinin qatıldığı nümayişdə 6 nəfərin öldüyünü açıqladı. Qeyri-rəsmi məlumatlarda isə onlarla nümayişçinin öldürülməsi və yüzlərlə insanın yaralanması göstərilirdi.

Nümayişin ertəsi gün Xomeyni Qumu və mütərəqqi ruhaniləri bütpərəstliyə qarşı qəhrəmanlıq nümayiş etdirdikləri üçün təbrik etdi və şahı ABŞ-la birləşərək islamı, İran kənd təsərrüfatını məhv etməkdə və ölkəni xarici mallar üçün zibilliyə çevirməkdə ittiham etdi (7, s.506). Bu vaxt İran ruhani hərəkatının lideri, əslən azərbaycanlı olan Ayətullah Seyid Kazım Şəriətmədari xarici müxbirlərə verdiyi müsahibədə hökumətin üləmaya böhtan atdığından, polisin qeyri-islami bir davranış göstərdiyindən şikayətləndi (7, s.506). Şəriətmədari o zaman İran ruhaniləri arasında əsas söz sahiblərindən biri hesab olunurdu. Xomeynini şahın edamından xilas etmək üçün ona ən yüksək dini rütbə - "ayətullah-uzma" rütbəsi vermişdi. Həmin vaxtın qaydalarına görə, ayətullah rütbəsi daşıyan şəxs barəsində edam hökmü çıxarıla bilməzdi. Şəriətmədari hökuməti "üləma"ya hücumlarını dərhal dayandırmasa, ölən nümayişçilərin cəsədlərini şəxsən Tehrandakı saray qapılarına çatdırmaqla təhdid etmişdi (7, s.506). Ayətullah Seyid Kazım Şəriətmadari həmçinin ardıcıllarına yazdığı açıq məktubda hakimiyyətin Qumdakı nümayişçilərə atəş əmrini verməsini "qeyri-islami və insanlıqdan kənar" bir hərəkət olaraq qınadı (6, s.108). Bu məktubun 20000-dən çox nüsxəsi bütün İrana paylandı.

1978-ci ilin fevralında ölkədə inqilab proseslərinin yeni mərhələsi başlandı. Qum iğtişaşlarında öldürülənlərin qırxıncı günü -18 fevralda mərhumlara yas tutmaq üçün iri bazarlar və universitetlər bağlandı. Ruhanilər əksər iri şəhərlərdə anım mərasimləri təşkil etdilər. Tehran, Qum, İsfahan, Məşhəd, Əhvaz, Şiraz və Rəşt də daxil olmaqla on iki şəhərdə dinc nümayişlər baş verdi. Bütün ölkədə etirazlar yaşanırdı. Lakin təbrizlilərin coşqulu iştirakı səbəbindən bu şəhərdəki nümayişlər daha geniş miqyas və emosianal şəkil aldı. Təbriz şəhərində baş verən hadisələr bütün İranda etiraz aksiyalarının güclənməsinə rəvac verdi (12, s.105). Təbrizdəki aksiyalarda 100 mindən çox etirazçı iştirak edirdi. Etiraz aksiyaları 18 fevral 1978-ci il tarixində səhər saat 9-da başladı. Ayətullah S.K.Şəriətmədari başda olmaqla, ölkənin beş tanınmış dini liderlərindən ibarət qrup Təbriz əhalisini 9 yanvarda Qumda təşkil olunmuş hökumət əleyhinə nümayişçilərin kütləvi edamının qırx mərasimi günü hakimiyyətə qarşı çıxmağa çağırdı. Bəzi araşdırmaçıların qeyd edilən hadisələrə yanaşması fərqlidir. Maşallah Rəzmi bu üsyan haqqında yazır ki, 1977-ci ildə Təbrizdə 29 Bəhmən aksiyasının tipik bir şəhər qiyamı olduğu dürüst qəbul edilməlidir. Bir çoxları bu qiyamın liderliyinə iddia etdilər ki, Şəriətmədari və tərəfdarları da həmin iddialılardan idi. Əksinə, Şəriətmədari və onun xalqı sakit olmağa səsləyən Naserzadə kimi molla tərəfdarlarının rolu kütlənin müstəqil fəaliyyətinə qarşı çıxmaq idi. Xalqı ümumi tətilə son verməyə, işə getməyə və bazarları açmağa çağıran Şəriətmədari idi (13, s.30).

Ayətullah Şəriətmədarinin ruhanilər və xalq arasında böyük nüfuz sahibi və inqilabi proseslərin əsas idarəçilərindən olmasına baxmayaraq, sonradan onun barəsində ziddiyyətli iddialar irəli sürülməyə başlanmışdı. M.Rəzmidən başqa, Milani də onun barəsində iddia edilirdi ki: "...həm işin nəbzini, həm də ruhani hökumətinin taleyini bilən Şəriətmədari kimi varlı din xadimləri dərhal məhkəmə və hökumətlə əlaqə quraraq hökumətin üzr istəməsini və hadisənin yayılmasının qarşısını almaq üçün işin bitməsini tövsiyə etmişdi" (11, s.493). Maşallah Rəzminin Şəriətmədari barədə başqa fikirləri də diqqəti çəkir: "Xatırlayıram ki, inqilabdan on il əvvəl, mən və bir neçə yerli uşaq şah zülmünə açıq şəkildə qarşı çıxdığımızda, Şəriətmədarinin Azərbaycandakı səlahiyyətli nümayəndəsi, müctəhid Ayətullah Hacı Seyid Yusuf Hakam İbadi dedi ki, şah millətin atasıdır və kim krala qarşı çıxsa, sanki ata-anasını təhqir etmiş olur" (13, s.32). Şəriətmədarinin inqilabi hərəkatda mövqeyi ilə bağlı yerli və xarici mənbələrdə ziddiyyətli fikirlər mövcud olduğundan onun inqilabda hansı istiqamətdə iştirakı ilə bağlı dəqiq fikir söyləmək çətindir. Bir fakt dəqiqdir ki, inqilabı proseslərdə aparıcı simalardan biri idi və inqilabda iştirak etmiş kütlələr arasında yüzminlərlə tərəfdarı vardı. Onun inqilabın lideri Xomeynini ölümdən xilas etməsi də unudulmamalıdır.

Təbriz hadisələri zamanı minlərlə insan eyni vaxtda şəhərin müxtəlif rayonlarında küçələrə və meydanlara axışdı və şəhərin mərkəzi meydanında cəmləşdi. 10000 nəfərlik bir izdiham Firdovsi küçəsində yerləşən Qızıllı məscidinə toplandı. Təbrizin mərkəzi küçələrindən başlayan izdihamlı nümayişlər digər küçə və prospektlərə, məhəllələrə yayılmış, praktiki olaraq bütün şəhəri əhatə etmişdi. Qərb tarixçisi R.K.Ramazani üsyanın "bütün şəhəri əhatə etdiyini" vurğulayır. O, etiraz aksiyasının qeyri-spontan xarakteri barədə qeyd edir ki, aksiyaçılar əvvəlcədən dəyənəklər və çapacaqlarla, bəziləri isə yanacaq qarışığı olan şüşələrlə silahlanmışdılar. Senator Əli Rezai Senatın 20 fevral 1978-ci il tarixli iclasında etdiyi çıxışda bildirmişdi ki, nümayişçilər əvvəlcədən çapacaq və tez alışan maddələrlə silahlandığı üçün Təbrizdəki iğtişaşlar təsadüfi ola bilməz (5, s.108).

Üsyanın aydın düşünülmüş təşkilatlanması və hərəkət planı var idi. Nümayişlərin hərəkət istiqamətləri, iştirakçıların keçməli olduqları əsas prospekt və küçələrin başlanğıc və bitmə nöqtələri təyin edilmiş, ümumiyyətlə, bütün hərəkət və marşrutlar tam aydın şəkildə təşkil olunmuşdu. Bütün bunlarla yanaşı, bu aksiyalarda digər üsyanlarda olduğu kimi çatışmazlıqlar da var idi - idarəçilikdən kənar, kortəbii elementlər də mövcud idi. Bu, əhalinin müxtəlif təbəqələrinin etiraz aksiyalarına spontan qoşulması ilə əlaqədar idi.

Bəzi xarici mənbələrə görə, Təbriz hadisələri kortəbii meydana gəlmişdi. Həmin iddialara görə, bu hadisələr polislə gənc fəhlə arasında yaşanan qarşıdurma və insanların məsciddə saxlanılması nəticəsində meydana çıxmışdı (9, s.125). E.Abrahamiyan "Təbrizdə hirsli bir polis nəfərinin bir gənc tələbə etirazçını güllələdikdən sonra nümayiş şiddətə çevrildi" deyə yazır (7, s.506). Fikrimizcə, bu, hadisələrin başlanğıcı üçün qığılcım ola bilər və üsyanın kortəbiiliyini təyin edən fakt deyil. Dövrün bəzi siyasi partiyaları və təşkilatları da baş verənləri başıpozuq iğtişaş kimi qələmə verməyə çalışırdı. İran daxilində Tudə Partiyasının fəalları tərəfindən gizli şəkildə yayımlanan "Nəvid" qəzetində dərc edilən bir məqalədə baş verənləri anarxizm və iğtişaşlar yaratmaqla xalqın mübarizəsini pozan maoist qrupların işi adlandırılmışdı. Ancaq səkkiz il sonra, 1986-cı ilin yayında Demokratik Firqənin Azərbaycan təşkilatı 29 Bəhmən hadisələrini izah edən bir məqalədə hadisələrin firqəçilər tərəfindən başladıldığını iddia etmişdi. Xomeyni tərəfdarları da həmin hadisələrin İmamın rəhbərliyi altında baş verdiyini iddia edirlər (13, s.33).

Bir qrup nümayişçi Təbriz yaxınlığındakı Eynalı dağında yerləşən kiçik dalğalı ötürücü stansiyaya gedərək qurğuları bütünlüklə sıradan çıxarmış və Şah rejiminin təbliğat vasitəsinə ağır zərbə vurmuşdu. Rəsmi məlumatlara görə, etiraz aksiyaları zamanı təxminən 134 yanğın baş vermiş, 22 ticarət mərkəzi və 28 nəqliyyat vasitəsi yandırılmış, 73 banka hücum edilmiş, lakin heç bir talana yol verilməmişdi (5, s.112). Pəhləvi dövlətini simvollaşdırdıqları üçün polis bölmələrinə və Dirçəliş partiyasının ofislərinə, həm yerli, həm də əcnəbi zənginlərə xidmət etdikləri üçün lüks otellərə, orta təbəqənin düşüncələrini pozduqları üçün "pornoqrafik" film göstərən kinoteatrlara, kiçik iş adamlarına qarşı ayrı-seçkilik etdiklərinə görə əsasən şah ailəsinə, dövlətə və varlı sahibkarlara məxsus iri banklara hücumlar edilmişdi. Bazar sahibkarlarına məxsus kiçik bankların çoxuna hücum təşkil edilməmişdi. Dağıdılmış ticarət obyektləri arasında "qərbləşmə" ocaqları sayılan alkoqollu içkilər, bahalı mallar, televizor və radio avadanlığı satan mağazalar da var idi. Təbrizdəki avropalı şahidlərin bildirdiyinə görə, hücuma məruz qalan iri banklar bütün qeydlərini itirdilər, ancaq "bir dənə də olsun" pul itkisi olmadı (7, s.507). Hökumət mətbuatının "acgöz dəstə" kimi qınadığı bu nümayişçilər ciblərini doldurmaqdan daha çox siyasi mesajlar verməkdə maraqlı idilər (7, s.507). Diqqəti çəkən bir faktı da qeyd edək ki, Təbrizin yeni təyin olunmuş bələdiyyə başçısı doktor M.B.Sadrinin verdiyi məlumata görə, üsyan zamanı nümayişçilər Bozorgmehr küçəsində yerləşən İran-Amerikan Cəmiyyətinin binasına hücum etmişdilər. Üsyan zamanı inqilabi hərəkatda ilk dəfə "Şaha ölüm!" şüarı irəli sürülmüşdü (5, s.112). Üsyan bir tərəfdən mərkəzi hökumət və ya ölkənin paytaxtında yerləşən şirkətlər və banklarla əlaqəli olan hər şeyin məhv edilməsi, digər tərəfdən Şahın zülmünün və despotizminin aradan qaldırılması tələbləri ilə yanaşı Şah rejimi tərəfindən həyata keçirilən İranın "neomüstəmləkəçi qərbləşmə" siyasətinə qarşı mübarizə şəklində təzahür etdi.

Təbriz üsyanı yalnız 19 fevral axşamı Kürdüstan, Tehran və İranın bir sıra digər şəhərlərindən gətirilmiş nizami ordunun əlavə hissələrinin iştirak etdiyi qanlı toqquşmalardan sonra yatırıldı. Nümayişlər zamanı Təbriz küçələrində xalqı Şəriətmədarinin tərəfdarları olan mollalar müşayiət edirdi. Hərbi hökumətin nümayişi boğan bütün tankları və zirehli maşınları Şəriətmədarinin fotoları ilə bəzədilmişdi. Maşallah Rəzmi bu hadisələrə istinadən yazırdı: "Şübhə etmirəm ki, inqilabçı siyasi qrupların Şəriətmədariyə olan kini 20 fevral 78-ci il qiyamı ilə 11 fevral 79-cu il inqilabı arasında meydana gəldi və möhkəmləndi, çünki bu mühüm ildə Şəriətmadarinin mövqeləri inqilabçı qrupların əksinə idi" (13, s.32).

"Middl East Economics Digest" Təbriz üsyanının amansızcasına yatırılması ilə bağlı yazırdı: "Polisin qiyamçılara müqavimət göstərə bilmədiyi zaman qiyamı yatırmaq üçün tank və qoşundan istifadə olunması ehtiyacı üsyanın xalq tərəfindən geniş şəkildə dəstəkləndiyini göstərir" (5, s.111). Qeyd edilən şəhərlərdən silahlı qoşun növlərinin gətirilməsinin səbəblərindən biri də Şah rejiminin Güney Azərbaycan əyalətinin yerli qüvvələrinə etibar etməməsi idi. Fransa qəzeti "Maten"in verdiyi məlumata görə, Təbrizdəki iğtişaşlar zamanı üsyan baş vermiş bölgənin yerli polis hakimiyyəti nümayişçilərə atəş açmaq əmrini verməkdən imtina etmişdi (8, s.353). Gizli polis gözətçiləri sayılan SAVAK-ın sıralarında belə, parçalanma meydana gəlmişdi. Təbrizdəki qarışıqlıqdan sonra etirazçılara atəş açmaq əmri verməkdən imtina edən yerli zabitlər Azərbaycan ərazisindən çıxarılmışdı.

Üsyandan sonra ölənlərin ümumi sayı hökumət tərəfindən 6, müxalifət tərəfindən 300-dən çox, avropalı şahidləri tərəfindən təxminən 100 nəfər olaraq göstərilmişdi (7, s.507). Həqiqi rəqəm nə olursa olsun, qeyd olunanlar nəticəsində belə qənaətə gəlmək olur ki, bu, 1963-cü ildən sonra ən böyük ictimai etiraz idi.

Təbriz üsyanı müxtəlif ideoloji istiqamətlərə və fərqli hədəflərə sahib fərqli qüvvələrin geniş koalisiyasının iştirakı ilə baş verdi. Üsyanda əhalinin geniş təbəqələri - ziyalılar, tələbələr, fəhlələr, kiçik sahibkarlar, bazarın ticarətçiləri və sənətkarları, dövlət müəssisələrinin işçiləri, məktəb və universitetlərin müəllim və tələbələri və b. iştirak edirdi. Sol təşkilatlar və qruplar da üsyanda fəal iştirak edərək radikal şüarlar irəli sürür, eyni zamanda digərləri kimi, islam ədaləti prinsiplərini bayraq edərək hakimiyyətə qarşı çıxırdılar. Bu üsyanın anonim avanqardları əsasən gənclər və solçu qrupların tərəfdarları idi və əksəriyyəti inqilabdan sonra İslam Respublikasının şəriət hakimləri tərəfindən Allah ilə düşmənçilik və yer üzündə fəsad törətmək ittihamı ilə edam cəzasına məhkum edildilər (13, s.30). Nümayişçilərin şüarları o dövrün azərbaycanlıları arasında yayılmış hədəfləri və fərqli ideologiyaları əks etdirirdi. Aksiyaçılar bir tərəfdən nümayişlər zamanı dini liderlərin çağırışlarına cavab verir və İslam şüarları səsləndirir, digər tərəfdən də şüarlarında "demokratiya" çağırışları edirdilər. Şüarın Azərbaycan türkcəsində səsləndirilməsi mədəni hədəfləri və Azərbaycan türk dilinin xalq üçün əhəmiyyətini ifadə etdi" (12, s.105). Aksiya şahidlərindən birinin dediyinə görə, etirazçılar ana dilində, "Su istəyirik, işıq istəyirik, Şaha dörd illik idarəçilik istəyirik!" şüarları səsləndirərək dövlət başçısının 4 illik müddətə seçilməsini tələb edirdilər (5, s.109). İnqilab dövründə İran xalqları tərəfindən milli tələblərin irəli sürülməsi müşahidə olunmamışdı. Yalnız inqilabın qələbəsi ərəfəsində və ondan sonra milli hüquqların təmin edilməsi məsələsi gündəmə gəldi.

"Mocahiddin-e Xalq"ın ikinci siması olan, 1917-1920-ci illərdə Güney Azərbaycanda milli-azadlıq hərəkatının lideri, mənşəcə azərbaycanlı Şeyx Məhəmməd Xiyabaninin nəvəsi Musa Xiyabaninin üsyanda fəal iştirak etməsi diqqət çəkir. Şahın və onun ətrafının "İslam marksistləri" adlandırılan şəxslərin Təbriz hadisələrinin təhrikçiləri olduğunu elan etmələri təsadüfi deyildi. "İslam marksistləri" deyildikdə, Azərbaycanda çoxdan güclü mövqelərə sahib olan "Mocahedden-e Xəlq-e İran" təşkilatının üzvləri nəzərdə tutulurdu. Azərbaycanda güclü mövqeyə malik olan sol-radikal "Fedaeyan-e Xəlq-e İran" təşkilatı da Təbriz üsyanında fəal iştirak edirdi.

Təbrizdəki Fevral üsyanının təşəbbüskarları və ən fəal iştirakçıları "ənənəvi" orta şəhər təbəqələri idi. Eyni zamanda İslam dininə sadiq, "İslam dəyərlərin"ə bağlı təbəqələrin də hərəkatda təşəbbüskar və aktiv iştirakçı olması inqilabda şiə din xadimlərinin mövqeyinin gücləndirilməsini şərtləndirirdi. Onların dəstəyi sayəsində dini və xırda burjua ideoloqlarının irəli sürdükləri islam

rəngli sosial bərabərlik anlayışları kütlə arasında geniş populyarlıq qazanmışdı. İri burjuaziya Təbrizdəki fevral etirazında az iştirak etdi. Sol qüvvələr üsyanda fəal şəkildə iştirak etsələr də, etiraz aksiyalarında əsas aparıcı fiqur, lider kimi görünmədilər.

Saleh Əliyevin dediyi kimi, 1978-ci ilin birinci yarısında baş verən aksiyaların iştirakçıları rəngarəng sosial xarakterli və ideoloji oriyentasiyalı siyasi qüvvələrdən ibarət idilər (4, s.244). Onları birləşdirən şah diktaturasına qarşı düşmən münasibət idi. Azərbaycandakı bu çıxışların ən aktiv iştirakçıları ənənəvi orta şəhər təbəqələri idi. Lakin aydın görünürdü ki, xüsusilə də 1978-ci il fevralda baş vermiş Təbriz üsyanında dağınıq müxalif qüvvələri birləşdirən, təşkilatlandıran və stimullaşdıran anti-şah şiə ruhaniləri idi ki, tədricən inqilabi hərəkatda rəhbərliyi ələ aldılar.

Beləliklə, 1977-ci ilin sonunda etiraz nümayişləri ziyalılar və tələbələrdən ibarət demokratik düşüncəli və mütərəqqi təbəqələrin iştirakı ilə başlansa da, dünyəvi müxalifət qüvvələrinin təqib və repressiyaya məruz qalması şiə ruhanilərinin fəaliyyətinin güclənməsinə və təşkilatçılıq qabiliyyətinin üzə çıxmasına ciddi təsir etdi. Onlar geniş xalq kütlələrinin narazılığının artması və ölkədəki inqilabi hərəkatın böyüməsi şəraitində inkişaf etmiş sol qüvvələrlə müqayisədə daha üstün mövqedə olmaqla, ön plana çıxdılar və sonradan inqilaba rəhbərliyi ələ almağı bacardılar. ABŞ-ın İrandakı səfirliyinin rəsmisi Maykl Metraniko 5 iyun 1978-ci ildə Tehrandakı səfirliyin yüksək vəzifəli şəxslərinin iştirak etdiyi konfransında çıxış edərək yuxarıda qeyd olunanlara belə izahat verdi: “Təbrizdə din... böyük bir gücə malikdir. Əslində əhalinin əsas yeganə vaxt keçirdiyi yer - məsciddir” (5, s.110). Buna görə də o, Təbrizdəki üsyanın “dini səbəblərdən” baş verdiyinə inanırdı.

Qiyam yatırıldıqdan dərhal sonra şəhərdə kütləvi repressiyalar - həbslər və terror başladı. Şəhər qoşunlar və əlavə polis bölmələri tərəfindən mühasirəyə alındı və ölkənin digər bölgələri ilə əlaqəsi kəsildi. 1 martda Tehrandan 100 polis əməkdaşı Təbrizə gətirildi və iki gün sonra onların sayı 400 nəfərə çatdı. SAVAK agentləri Təbrizə girməyə və ya çıxmağa cəhd edənlərin hamısını axtarırdılar. Məhkəmə heyəti dəmir yolu kassalarındakı biletlərin belə, pasport göstərilmədən satılmayacağını açıqlayırdı. Kütləvi həbslər sözün əsl mənasında bütün Güney Azərbaycanı bürümüşdü - həbs edilənlər arasında Mərənd, Sərdrud, Şəbüstər və vilayətin digər şəhərlərindən olan şəxslər var idi.

Beləliklə, göründüyü kimi, qeyd olunanlar Təbrizə yaxın olan Azərbaycan şəhərlərindən gələnlərin etirazlarda aktiv iştirakına dair rəsmi versiyanı (guya Təbrizin ətraf kəndlərindən bir qrup şəxs yalnız baş verənlərə baxmaq üçün gəliblərmiş) təkzib edirdi. Həbs olunan üsyan iştirakçılarının məhkəməsinin avqust ayında keçirilməsi də maraqlıdır. Yəni “hadisələri görmək üçün ətraf kəndlərdən gələnlərin” məhkəməsi altı ay çəkmişdi.

Fevral ayında iki günlük hadisələrin səbəblərini araşdırmaq üçün hökumət və Şah komissiyaları bir-birinin ardınca Təbrizə göndərildi (6, s.20-21). Komissiyalar əsasən iğtişaşların “Şərqi Azərbaycan vilayətinin vəzifəli şəxslərinin diqqətsizliyi” üzündən baş verdiyi “fakt”ı üzərindən araşdırma aparırdılar. Şahın Təbriz hadisələrinin qarşısının alınmasında “səhlənkarlıq” göstərən şəxslərə qarşı sərt tədbirlərin tətbiqi barədə sərəncamına əsasən, həmin adamlar vəzifələrindən çıxarılmışdı. Şərqi Azərbaycanın general-qubernatoru İskəndər Azmude, yerli polis və SAVAK rəhbərləri, habelə, polis idarəsinin məlumat şöbəsinin müdiri, Təbrizdəki 6-cı polis bölməsinin rəisi və vilayətin digər rəsmiləri tutduqları vəzifələrindən rəsmi sərəncamla kənarlaşdırılmışdılar. Hökumətin Təbriz hadisələrinə reaksiyalarından biri də əslən Azərbaycandan olan yüksək rütbəli və nüfuzlu dini liderlərin öz tərəfdarlarından ayrılaraq yaşayış yerlərindən kənarlaşdırılması və sürgünə göndərilməsi oldu. Lakin hökumətin bu cəza tədbiri ilə bağlı qərarları ölkə ictimaiyyəti arasında geniş rezonans doğura biləcəyi qorxusundan heç bir yerdə rəsmən qeydə alınmadı, mətbuatda, televiziya və radio vasitəsilə bu barədə məlumat verilmədi.

Rəsmi orqanların bildirdiyinə görə, üsyan yatırılan zaman 9 nəfər öldürülmüş və 125 nəfər yaralanmış, bir neçə yüz nəfər həbs edilmişdi (10). Lakin Böyük Britaniyanın “Times” qəzeti üsyanın ilk günü - yalnız şənbə günü təxminən 100 nəfərin öldüyünü yazmışdı (5, s.114). İXP-nin (Tude) gizli orqanı olan “Nəvid” qəzeti qeyd edirdi ki, üsyan zamanı ölənlərin sayının 400 nəfərə yaxın, yaralıların sayı 1000 nəfər, həbs olunanların sayı isə təxminən 2000 nəfər idi (5, s.114). Bəzi məlumatlara görə, Təbriz hadisələrinin qurbanlarının sayının bir neçə min olduğu təxmin edilirdi. Təbrizdə etiraz

aksiyalarının yatırılmasına cəlb edilmiş qoşun növlərindən və silahlı dəstələrin sayından da görünür ki, baş vermiş hadisələr İran rəsmi mediasının iddia etdiyi kimi, "bir ovuc asayiş pozucusu"nun deyil, bir neçə min təbrizlinin iştirak etdiyi olduqca böyük və güclü bir üsyan idi.

Təbriz üsyanının əhəmiyyətini və rolunu azaltmağa çalışan rəsmi dairələr bu çıxışları "xaricdən gələn fitnə və təhrikçilərin" yaratdığı bir iğtişaş kimi təqdim etməklə Təbrizdəki hadisələri yönəldən hansısa "əli" axtarırdılar. İranın baş naziri J.Amuzgar və hökumət üzvləri bir qrup insanı zorla Şərqi Azərbaycan general-qubernatorluğunun binasına apararaq 9 aprel 1978-ci ildə Təbrizdə nümayiş təşkil etmişdi. Baş nazir həmin nümayişdə xüsusi olaraq bildirirdi ki, 29 bəhmən (18 fevral) Təbriz hadisəsini təşkil edənlər təbrizlilər olmayıblar (1, s.1). Zəncan şəhərinin təmsilçisi, briqada generalı Hüseyni Bayat da Məclis iclasında Təbrizdəki iğtişaşların bir neçə əcnəbinin təhriki ilə törədildiyini vurğulamışdı. Onun bu iddiasına Tehrandan olan deputat Abbas Mirzai və Parlament Əlaqələri üzrə dövlət naziri Halak Rombod (təxminən 14 il, 1975-ci ildə Rastaxiz partiyasının qurulmasına qədər Məclisdə azlığın lideri olmuşdu) da şərik çıxmışdılar.

Maraqlıdır ki, İran Milli Abidələri Cəmiyyətinin sədri vəzifəsində işləyən doktor Huşəng Nəhavəndinin rəhbərlik etdiyi İran Məsələləri Araşdırma Qrupunun (iyun 1978) hesabatında xüsusi qeyd edilirdi ki, Təbrizdəki üsyançıları "xaricdən gələn" adlandıranlar ictimai elmləri və İrandakı vəziyyəti zəif bilirlər.

Təbriz üsyanı məğlubiyyətlə nəticələnsə də, müsbət cəhətləri ilə yanaşı, bir sıra mənfi cəhətləri olsa da, ölkə əhalisinin əksəriyyətinin Şah rejiminə sədaqəti haqqında mifi məhv etdi. Etiraz aksiyaları zamanı diqqət ediləsi vacib bir məqam üsyançıların 2 saatdan az bir müddətdə hökumət partiyası "Rastaxiz"in yerli şöbəsinin qərargahını – "Gənclik Sarayı" adlanan binanı tamamilə dağıtması idi. Bura həm də sakinlərin gizli təhlükəsizlik xidməti SAVAK-la əməkdaşlığa məcbur edildiyi mühafizə yuvası idi.

İXP-nin əsas orqanı olan "Mərdom" qəzeti Təbriz hadisələrinin xalqın böyük gücünü göstərdiyini və "sabitlik adasında sabitliyin olmadığını", "Ağ inqilab"ın xalqın qanı ilə yoğurulmuş qara reaksiya olduğunu qeyd etmişdi (5, s.115). Təbriz hadisələri İran islam inqilabının gələcək inkişafına çox güclü təsir göstərdi. Məhz bu hadisələrdən sonra İranda inqilabı hərəkatın yüksəlişi və miqyasının genişlənməsi başladı.

Bu üsyan yalnız hərbi-polis rejimini şoka salmadı, həm də insanlara yeni bir təkan və ümidlər aşıladı. Bu tarixi hadisə növbəti etirazların qarşısını almaq üçün hakimiyyət tərəfindən görülən tədbirlərə baxmayaraq, Tehran, İsfahan, Yəzd, Məşhəd, Həmədan, Ərdəbil, Qəzvin və s. kimi şəhərlərdə təkrarlanan bir sıra çıxışlar üçün bir nümunə oldu. Xüsusilə Təbrizdəki üsyandan sonra Şah daha geniş siyasi azadlıqlar veriləcəyini elan etdi. Böhranla mübarizə aparmaq üçün rejim mürəkkəb üçlü bir strategiya qəbul etdi. Birincisi, dünyəvi müxalifət liderlərini fiziki olaraq qorxutmağa çalışdı. İkincisi, rejim kiçik iş adamlarının və mülayim ruhanilərin qəzəbinə səbəb olan bəzi siyasətlərdən imtina etdi. Üçüncüsü, Baş nazir Amouzegar, iqtisadiyyatı yavaşlatmaqla, orta sinif narazılığının əsas iqtisadi səbəbi olan dolanışıqlı yaşayış xərclərini azaltmağa çalışdı. Hərbi büdcəni azaltmağa şahı inandıra bilməyən Amouzegar mülki xərcləri, xüsusən inkişaf planını kəskin şəkildə azaltdı (7, s.509).

29-30 mart 1978-ci ildə, Təbriz üsyanının qırxıncı günü (29 mart) Tehranda, Yəzddə, Məşhəddə, İsfahanda, Zəncanda, Ərəkdə, Qəzvində, Qumda və ölkənin digər şəhərlərində hökumət əleyhinə nümayişlər keçirildi. Təbrizdəki çıxışlar zamanı dövlət müəssislərinə, banklara, kinoteatrlara hücum cəhdləri oldu.

Bu qarşıdurmaların ən şiddətli olduğu Yəzddə, on min adamın iştirak etdiyi nümayişdə "Şaha ölüm", "Xomeyniyə salam" ilə yanaşı "Yaşasın Qum və Təbriz şəhidləri" şüarları da səsləndirilmişdi (7, s.507).

Qeyd olunan hadisələrdə həlak olanların 40-cı günündə 9-10 may 1978-ci ildə Tehranda, Təbrizdə, Qumda, Məşhəddə, Həmədanda, Qəzvində və ölkənin digər şəhərlərində yenidən hökumət əleyhinə kütləvi çıxışlar başlandı. Nümayişçilər qırmızı bayraqlarla küçələrə çıxaraq hökumət siyasətini ittiham edən şüarlar səsləndirdilər. Təbrizdəki Azərbadeqan universitetinin bir qrup tələbəsi hökumət əleyhinə bir neçə dəfə mitinq təşkil etdilər. 4 noyabr 1979-cu ildə ABŞ-ın İrandakı səfirliyini

ələ keçirmiş və Amerika əməkdaşlarını 444 gün girov saxlamış "İmam kursu tələbələri"nin ələ keçirdiyi, inqilabdan sonrakı mərhələdə "Casus yuvasının sənədləri" başlığı altında çap olunmuş sənədlərdən aydın olur ki, (3, s.27) Təbriz Universitetində dərslər ikinci yarımildə nəzərdə tutulmuş müddətin yalnız bir ayında keçirilib. Lakin nə universitetin bağlanması, nə həbslər, nə də digər repressiv tədbirlər hərbi-polis rejiminə qarşı həlledici çıxışlar edən Təbriz universitetinin tələbələrinin müqavimətini qıra bilmədi. 22 mayda Urmiya şəhər Universitet tələbələri iki dəfə küçələrə çıxaraq nümayiş keçirdilər (12, s.106). İğtişaşlar yaya qədər davam etdi.

Hökumətə görə, qırxıncı gün iğtişaşlarının üç dövründə 22 nəfər ölmüş, 200-ə yaxın adam yaralanmışdı. Müxalifətə görə isə 250 ölü və 600-dən çox yaralı olmuşdur. Abrahamiyanın dediyi kimi, "Müşahidəçilər bu rəqəmləri şübhə altına ala bilərlər, lakin qorxunc görünüşlü Pəhləvi rejimində ciddi çatların görünməyə başladığı ilə bağlı mübahisə edə bilməzlər" (7, s.508).

Əslində Təbriz üsyanından sonra hökumətin həyata keçirdiyi siyasətin (yuxarıda qeyd olunan yumşalma siyasəti) işə yaraması özünü göstərdi. 10-12 May qırğınlarının qırxıncı günü qan tökülmədən keçdi. Qırxıncı günə hazırlaşarkən, Şəriətmədari və mötədil ruhanilər sadiq insanlara məscid ibadətlərinə getməyi xahiş etdilər, lakin küçə nümayişlərindən çəkinməyə çalışdılar. Şəriətmədari də mətbuata "şahın gedib-gəlməməsi ilə maraqlanmadığını, ancaq konstitusiyanın qaytarılmasını istədiyini" söylədi. Xomeyni isə ölkəni "bütpərəst rejim" devrilənə qədər etirazlarını davam etdirməyə çağırdı. İyun ayında xalqın Xomeynidən çox Şəriətmadariyə diqqət yetirməsi bir çoxunun rejimin fırtınaya tab gətirdiyi qənaətinə gəlməyə səbəb oldu. İyunun əvvəlində Amuzgarın inamla elan etdiyi kimi, "böhran bitdi". Əslində, böhran təzə başlamışdı və yaz sakitliyi son fırtınadan əvvəl sükunətə çevrildi (7, s.509, 510).

**Nəticə**

Rejimin institusional dayaqları qeyri-bərabər inkişafın və qeyri-bərabər modernləşmənin göstərdiyi təzyiqlərə tab gətirəcək qədər güclü deyildi. Gözlənilməz kəskin inflyasiya ilə müşayiət olunan iqtisadi böhran və polis nəzarətini yumşaltmaq və insan hüquqlarına riayət etmək üçün Şaha qarşı siyasi müxaliflərin etirazları və xarici təzyiqlərin yaratdığı institusional böhran rejimin hansı dərəcədə dayanıqlı olduğunu ortaya qoydu.

Planlı, məqsədyönlü təşkilatçılığın və idarəçiliyin nəticəsində aksiyaların miqyası böyüyərək üsyana çevrilmiş, rejimi "sürprizlər"lə qarşı-qarşıya qoymuşdu. Təbrizdə baş vermiş etiraz aksiyaları inqilabi hərəkatın başlanması üçün qığılcım və oyanış rolunu oynamışdı. Məhz Təbriz üsyanı İran cəmiyyətini silkələyərək şah monarxist rejiminə qarşı nifrətin daha da alovlanmasına səbəb, müxtəlif təbəqələrin hərəkətlənməsi üçün ilham mənbəyi və təkan olmuşdu.

## ƏDƏBİYYAT


1. Dədə Qorqud, 18.11. 1981., №7, s.1
2. Tağıyeva Ş., Rəhimli Ə. (Bije), Bayramzadə S. Güney Azərbaycan (məlumat kitabı). − Bakı: Orxan, 2000. − 514 s.
3. Агаев С.Л. Иранская революция, США и международная безопасность. – Москва, 1984.
4. Алиев С.М. Нефть и общественно-политическое развитие Ирана в XX в. – Москва, 1985, стр.244
5. Бабаев Э.Ч. Южный Азербайджан в Иранской революции 1978-1979 гг. // Cənubi Azərbaycan tarixi məsələləri (məqalələr toplusu). − Bakı: Elm, 1989. – s.98-142
6. Бабаев Е.Ч. О Тебризском восстании 18-19 февраля 1978 г.
7. Abrahamian Ervand. Iran between two revolutions, Princeton University Press, New Jersey, 1982, 576 p.
8. Cottam, Nationalism in Iran: Updated Through 1978.
9. Michael M.J. Fischer. İran: from religious dispute to the revolution Cambridge, 1980.

10. کیهانروزنامه, ۲۳.۱۱.۱۹۷۸
11. عباس میلانی. نگاهی به شاه , نشر پرشینسیرکلتورنتوـکانادا, ۱۳۹۲ ۶۰۳ ص
12. شافر برندا. مرزها و برادری ایران و چالش هویت آذربایجانی. نشر الوس.1385. 255 ص
13. رزمیماشااللهجنبشطرفدارانشریعتمداریدرسال۱۳۵۸, استکهلم, سال۲۰۰۰ ۱۳۵۸سال, ۲۰۰ ص

## РЕЗЮМЕ

***Егана ГАДЖИЕВА***

### *29 бахмановское восстание в Тебризе (18.02.1978) и его место в начале иранской Исламской революции*

***Ключевые слова:*** *Тебриз, Иран, революция, южные азербайджанцы, восстание*

В статье говорится, что восстание в Тебризе потрясло иранское общество и разожгло ненависть к шахскому режиму, явилось источником вдохновения и толчком для движения различных слоев. В то же время определено, что институциональная поддержка иранского режима недостаточно сильна, чтобы противостоять давлению неравномерного развития и неравномерной модернизации. Хотя протесты начались в конце 1977 с участием демократически настроенных и прогрессивных слоев интеллигенции и студенчества, преследования и репрессии светских оппозиционных сил усилили активность и организаторские способности духовенства.

## *SUMMARY*

***Yegana HAJİYEVA***

### *29th Bahman Rebellion in Tabriz (18.02.1978) and Its Place in the Formation of the Iranian Islamic Revolution*

***Keywords:*** *Tabriz, Iran, revolution, southern Azerbaijanis, uprising*

The article argues that the uprising in Tabriz shook Iranian society, and inflamed hatred against the Shah's regime, and was a source of inspiration and impetus for the movements of various sections. At the same time, it is determined that the institutional support of the Iranian regime is not strong enough to withstand the pressures of unequal development and unequal modernization. Although the protests began in late 1977 with the participation of democratically-minded and progressive sections of the intelligentsia and students, the persecution and repression of the secular opposition forces have strengthened the activities and organizational skills of Shiite clerics.